# Konvalesent plazma müalicəsi

İCBARİ TİBBİ SIĞORTA

TƏBİB

tabib.gov.az

# İmmun plazma müalicəsi nədir?

COVID-19 diaqnozu ilə müalicə alıb sağalmış xəstələrdən Mərkəzi Qan Bankı tərəfindən toplanan qan plazmasının ağır vəziyyətdə olan xəstələrdə istifadəsi ilə həyata keçirilən müalicə metodudur.

# Koronavirus xəstələri üçün kimlər plazma donoru ola bilər?

- COVID-19 diaqnozu laborator olaraq təsdiqlənib sonradan sağalan şəxslər.
- Klinik olaraq tam sağalmadan ən azı 14 gün sonra, 2 dəfə test nəticəsi neqativ olan şəxslər.
- 18-60 yaş arası könüllülər.
- Kişi və hamilə olmayan qadınlar (düşüyü və abort olmamış), həyatının heç bir dövründə qan transfuziyası edilməmiş insanlar.

İCBARİ TİBBİ SIĞORTA

TƏBİB

tabib.gov.az

# Plazma donorluğu necə həyata keçirilir?

- Uyğun donor qan donorluğunda olduğu kimi razılıq forması doldurur və müayinə edilir.
- Donordan qan alınaraq laborator testlər həyata keçirilir.
- Test nəticələri uyğun olan donorlardan aferez metodu ilə plazma alınır.
- Prosedur 45-60 dəqiqə davam edir.

# Bir donordan neçə dəfə plazma alına bilər?

- Donordan immun plazma 1 ay ərzində ən çox 3 dəfə, ilk plazmanın götürüldüyü tarixdən etibarən 7-10 gün fasilə ilə alına bilər.

# Plazma alınmasının donor üçün riski varmı?

- Bu prosedurun donorun sağlamlığı üçün heç bir riski yoxdur.
- Aferez proseduru zamanı qanın ayrılması üçün istifadə olunan setlər birdəfəlik və sterildir.
- Setlər qapalı sistem kimi işləyir .
- Prosedur zamanı qan cihazla təmas etmir.

## Bu müalicə ödənişlidirmi?

- Bu müalicə tam ödənişsizdir.
- Bütün xərclər TƏBİB tərəfindən qarşılanır.

# Plazma donorluğu və köçürülməsi necə icra olunur?

- Sağalan xəstələrin məlumatları TƏBİB tərəfindən Mərkəzi Qan Bankına göndərilir.
- Plazma donorları Mərkəzi Qan Bankı tərəfindən seçilir.
- Könüllü Donorlar müəyyən olunmuş növbəli sistem əsasında Mərkəzi Qan Bankına dəvət olunur. Gəlmə imkanı olmayan könüllü donorlar üçün Mərkəzi Qan Bankı tərəfindən gəliş-gedişləri təmin olunur.
- Xəstəxanadan gələn tələblərə əsasən plazmalar göndərilir. Plazma istəyi xəstə yaxını və ya xəstənin özü tərəfindən edilə bilməz.


Qan ver,
dəyişiklik yarat!
İCBARİ
TİBBİ SIĞORTA
TƏBİB
tabib.gov.az